

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 228 (21.129)

29 noyabr 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Avropa Komissiyasının enerji məsələləri üzrə vitse-prezidenti Maroş Şevçoviçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 28-də Ümumrusiya Dövlət Teleradio Verilişləri Yayım Şirkətinin “Rossiya-24” informasiya telekanalına müsahibə verib.

Dövlətimizin başçısı müsahibədə Azərbaycan-Rusiya ikitərəfli münasibətləri, Azərbaycanda gedən iqtisadi inkişaf prosesləri, ölkələrimiz arasında iqtisadi əməkdaşlığın perspektivləri, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycanda multikulturalizm ənənələri, 2015-ci ildə Bakıda keçiriləcək birinci Avropa Oyunlarına hazırlıq işləri və digər məsələlərlə bağlı sualları ətraflı cavablandırıb.



## Cənubi Afrika Respublikasında Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi qeyd olunmuşdur

*Noyabrın 12-13-də Cənubi Afrika Respublikasının (CAR) Cohannesburq şəhərində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi və CAR-da demokratiyanın bərqərar olunmasının 20 illiyinə həsr edilən klassik musiqi konserti keçirilmişdir.*







Tədbiri Azərbaycan Respublikasının Cənubi Afrika Respublikasındakı səfirliyi, Mədəniyyət və Turizm Nazirliyi, CAR-da fəaliyyət göstərən “Azərbaycanın dostları” qeyri-hökumət təşkilatı, CAR-ın ölkəmizlə ticarət əlaqəsi saxlayan iri sənaye şirkətləri birgə təşkil etmişlər.

Qonaqlara ölkəmiz, eləcə də onun Naxçıvan Muxtar Respublikası haqqında geniş məlumat verən Azərbaycanın Cənubi Afrika Respublikasındakı səfiri Elxan Poluxov bildirmişdir ki, bu il yanvarın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam imzalamışdır. Buna görə də Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi respublika miqyasında və dünyanın müxtəlif ölkələrində silsilə tədbirlərlə təntənəli şəkildə qeyd edilir. Yubiley tədbirləri Azərbaycanda milli dövlətçilik təfəkkürünün, ərazi bütövlüyü düşüncəsinin daha da dərinləşdirilməsinə və möhkəmləndirilməsinə xidmət edir.

Elxan Poluxov demişdir ki, Naxçıvanın muxtariyyət əldə etməsi o qədər də asan olmamışdır. Naxçıvana muxtariyyət verilməmişdir, əksinə, naxçıvanlılar bu muxtariyyəti qazanmışdılar. XX əsrin əvvəllərində Naxçıvanın muxtariyyəti ermənilərə qarşı silahlı mübarizə cəbhəsində qazanıldığı kimi, böyük dövlətlərin siyasi oyunlarına qarşı diplomatik mübarizə cəbhəsində də əldə edilmişdir. Qədim diyarın muxtariyyəti onun düşməndən müdafiəsi və Azərbaycanın tərkibində qalması üçün zəruri idi.

Son illər Naxçıvan Muxtar Respublikasının sürətlə inkişaf etdiyini bildirən Azərbaycanın Cənubi Afrika Respublikasındakı səfiri ölkəmizin bu diyarının, sözün əsl mənasında, özünün yüksəliş, inkişaf, intibah dövrünü yaşadığını vurğulamışdır.

E.Poluxov səfirliyin yaradılmasından ötən üç il ərzində həyata keçirilən işlər və qarşıda duran vəzifələrdən, iki dövlət arasındakı mövcud əlaqələrdən də danışmışdır. Bu cür tədbirlərin Azərbaycan musiqisini Afrika xalqına daha gözəl təqdim etmək üçün yaxşı imkanlar yaratdığını deyən səfir iştirakçıların xalqımıza məxsus klassik musiqi irsindən zövq alacaqlarına inamını ifadə etmişdir.

Tədbirdə CAR-ın nüfuzlu iş adamlarından, İçikovitz Ailəsi Fondunun təsisçisi İvor İçikovitz çıxış edərək konsertin böyük tarixi əhəmiyyət daşıdığını qeyd etmiş, bunun ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin inkişafına təkan verəcəyini bildirmişdir.

Konsertdə Cohannesburq Filarmoniya Orkestrinin ifasında Fikrət Əmirovun “Azərbaycan kapriççiosu” və “Ərəb mövzusunda piano konsert”i, Qara Qarayevin “Yeddi gözəl” baletindən süita, Soltan Hacıbəyovun “Karvan” və P.Çaykovskinin “Rokoko” mövzusunda variasiyaları solistlər Əməkdar artist Aleksey Miltıx və Beynəlxalq müsabiqələr laureatı Səidə Tağızadənin iştirakı ilə ifa olunmuşdur. Həmçinin ilk dəfə olaraq “Linder” konsert zalında Sevda İbrahimovanın “Etiraflar” adlı əsərinin dünya premyerası baş tutmuşdur.

Konsert qonaqlar tərəfindən maraqla qarşılanmışdır.

Sonra tədbir iştirakçıları Heydər Əliyev Fondu tərəfindən nəşr olunan kitablardan, Naxçıvan Muxtar Respublikasına həsr edilmiş fotolardan və ölkəmizdə istehsal olunan məhsullardan ibarət sərgiyə baxmışlar.

Tədbirdə Cənubi Afrika Respublikasında akkreditə olunmuş səfirlər, diplomatik korpusun nümayəndələri, yüksək rütbəli dövlət məmurları, bu ölkədə yaşayan Azərbaycan və Türkiyə icması, yerli klassik musiqisevərlər və media nümayəndələri iştirak etmişlər.

Konsert yerli və xarici kütləvi informasiya vasitələrində geniş işıqlandırılmışdır.

**Xəbərlər şöbəsi**

## Dövlət qulluqçularının reyestrinin elektron formada aparılması qaydaları ilə bağlı seminar keçirilib



***Noyabrın 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada “Dövlət qulluqçularının reyestrinin elektron formada aparılması qaydaları” mövzusunda seminar keçirilib. Mərkəzi, yerli icra hakimiyyətləri və məhkəmə orqanlarının kadrlarla iş üzrə nümayəndələrinin iştirakı ilə keçirilən tədbiri komissiyanın sədri Etibar Musayev açıb.***

Bildirilib ki, müasirləşən və qloballaşan dünyada yeni texnologiyalardan istifadənin sürətlə yayılması bu texnologiyaların dövlət idarəçiliyi sistemində də geniş tətbiqini zəruri edib. Ölkəmizdə, eyni zamanda muxtar respublikamızda bu istiqamətdə həyata keçirilən tədbirlərin, qəbul edilən dövlət proqramlarının məqsədi dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətin keyfiyyətini yüksəltmək, dövlət orqanlarının işində operativliyi, şəffaflığı və obyektivliyi tam təmin etməkdir.

Qeyd olunub ki, 2010-cu ilin noyabr ayında fəaliyyətə başlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya üçün yaradılmış iş şəraiti ən müasir tələblərə cavab verməklə yanaşı, yeni informasiya texnologiyalarından istifadə imkanları ilə də seçilir. Belə ki, 2011-ci ildə komissiya üçün yeni inzibati bina tikilərək istifadəyə verilib, binada test imtahanlarının keçirilməsi üçün kompüter sistemi quraşdırılıb. 2013-2014-cü illərdə isə kompüter sisteminin proqram təminatı hazırlanaraq istifadəyə verilib. İstifadəyə verilmiş yeni proqram təminatı dövlət orqanlarında istənilən imtahan prosesinin tam obyektiv və şəffaf keçirilməsinə şərait yaratmaqla yanaşı, vətəndaşlara göstərilən elektron xidmətlərin də lazımi səviyyədə həyata keçirilməsinə imkan verir. Hazırda komissiyanın internet saytında digər xidmətlərlə bərabər, “Dövlət qulluqçularının reyestrindən məlumatın verilməsi” elektron xidməti də göstərilir.

Komissiyanın sektor müdiri Arzuman İmanov çıxış edərək bildirib ki, “Azərbaycan Respublikasının dövlət qulluqçuları reyestrinin aparılması qaydaları” ölkə başçısının 21 iyun 2006-cı il tarixli Fərmanı ilə təsdiq edilib. Bu qaydalar “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanununa və digər normativ-hüquqi aktlara uyğun olaraq hazırlanıb və Azərbaycan Respublikasının dövlət qulluqçuları reyestrinin tərtib edilməsi, aparılması, ondan istifadə və məlumatların mühafizəsi qaydalarını müəyyən edir. Dövlət reyestrinin yaradılmasında məqsəd dövlət qulluqçuları haqqında məlumatları toplamaq, təzələmək və təhlil etmək, onların qulluğa yüksəliş yolu ilə seçilməsi, yerləşdirilməsi, ixtisas dərəcələrinin artırılması məsələlərinin və dövlət qulluğu ilə bağlı digər məsələlərin həllində bu məlumatlardan istifadə etmək, həmçinin müvafiq normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada dövlət orqanlarını həmin məlumatlarla təmin etməkdir. Qeyd olunub ki, dövlət reyestri Azərbaycan Respublikasının dövlət orqanlarının rəsmi olaraq təqdim etdikləri kağız və elektron daşıyıcılardakı məlumatlar əsasında aparılır. Reyestrdə saxlanılan məlumatların əldə olunması, işlənməsi, mühafizəsi, verilməsi və ya istifadəsi Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, məhdudlaşdırılan informasiya kateqoriyasına şamil edilən tələblərə uyğun həyata keçirilir.

Tədbirdə mövzu ilə bağlı slaydlar nümayiş etdirilib, iştirakçılara elektron sistemdən istifadə üçün istifadəçi adı və şifrə yazılmış bağlı zərflər təqdim olunub.

**✍ Səbuhi HƏSƏNOV**

***Naxçıvan Dövlət Universitetində “Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının innovativ inkişaf istiqamətləri” mövzusunda elmi-praktik konfrans keçirilib.***

## Naxçıvan Muxtar Respublikası iqtisadiyyatının innovativ inkişaf istiqamətləri müzakirə olunub

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr olunmuş konfransın plenar iclasını giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açıb.

İqtisad üzrə elmlər doktoru, professor Asif Şirəliyev “İnnovativ inkişaf iqtisadiyyatın tərəqqisinin mühüm amili kimi” adlı məruzəsində qeyd edib ki, Azərbaycanda davamlı və dayanıqlı iqtisadi inkişaf, makroiqtisadi sabitlik təmin edilib, əlverişli biznes və investisiya mühiti yaradılıb, sahibkarlıq fəaliyyəti genişləndirilib.

İqtisad üzrə elmlər doktoru, professor Ağarza Rüstəmov “Azərbaycanda innovativ sahibkarlıq fəaliyyəti və Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf” adlı məruzəsində regionda bazar iqtisadiyyatının əsasını təşkil edən innovasiya sahibkarlığının inkişaf etdirilməsi və onun nəticələrindən bəhs edib.

Son illərdə təhsilin, səhiyyənin, yüngül sənayenin, kənd təsərrüfatının və yol-nəqliyyat infrastrukturunun inkişafından da danışan məruzəçi vurğulayıb ki, ölkə Prezidenti cənab İlham Əliyevin “Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında” 3 mart 2014-cü il tarixli Fərmanında qarşıya qoyulmuş vəzifələrin uğurlu icrası bütünlükdə iqtisadiyyatın inkişafına güclü təkan verəcək.

İqtisad üzrə fəlsəfə doktoru, dosent Mehdi Bağırov “Muxtar respublikanın sosial-iqtisadi inkişaf vəziyyəti və ona təsir edən amillər” mövzusunda məruzə edərək hüquqi-normativ bazanın yaradılmasının, yeni təsərrüfat obyektlərinin işə salınmasının, sənayeləşmənin təşəkkülünün, yerli xammala əsaslanan istehsalın inkişafının, daxili tələbatın ödənilməsini təmin edəcək subyektlərin istifadəyə verilməsinin iqtisadi yüksəlişlə nəticələndiyini bildirib.

İqtisad üzrə fəlsəfə doktoru, dosent Asəf Qəribov isə “İqtisadi inkişaf və innovasiya fəaliyyətinin təşkili formaları” mövzusunda məruzə edərək uzunmüddətli elmi-texniki proqramların həyata keçirilməsi, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi məqsədilə məhsuldar qüvvələrin vəziyyətinə keyfiyyət dəyişiklikləri etmək üçün fundamental tədqiqatların maliyyələşdirilməsi, texnika və texnologiyanın prinsipcə yeni, qənaətcil növlərinin işlənib hazırlanması, yenilikçi məhsul və xidmətlərin tətbiqi və yayılması kimi innovasiya fəaliyyəti növləri barədə məlumat verib.

Sonra elmi-praktik konfrans bölmə iclaslarında öz işini davam etdirib.

**Mehriban SULTAN**

Aktual söhbət

# Muxtar respublikada dini durum son dərəcə sabitdir

*"Şərq qapısı" qəzeti yeni "Aktual söhbət" rubrikasını oxucularına təqdim edir. Bu rubrikada muxtar respublikanın müxtəlif təşkilatlarının nümayəndələrindən, ziyalılardan aldığımız müsahibələri təqdim edəcəyik. İlk müsahibimiz Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayevdir:*

***– Vüqar müəllim, bu il avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri "Naxçıvan Muxtar Respublikasında multikulturalizm və dini məsələlər üzrə komissiyaların yaradılması haqqında" Sərəncam imzaladı. Artıq komissiyaların yaradılması sahəsində işlər başa çatdırılıb. Öncə oxucularımıza bu barədə məlumat verməyinizi istərdik.***

– Bu sərəncamın məqsədi multikulturalizm və dini məsələlər üzrə komissiyaların təşkil olunması, dövlət-din münasibətlərinin daha yüksək səviyyədə, daha dolğun tənzimlənməsidir. Öncə qeyd edim ki, komissiyanın sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müavinidir. Komissiya üzvləri sırasına isə Naxçıvan Muxtar Respublikasının daxili işlər, təhsil, mədəniyyət və turizm, gənclər və idman nazirlərinin müavinləri, Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi və muxtar respublika qazisi daxildir. İcra hakimiyyətlərində yaradılan komissiyaların sədrləri şəhər və ya rayon İcra Hakimiyyəti başçılarının müavinləridir. Yerlərdə yaradılmış komissiyaların tərkibinə Təhsil, Mədəniyyət və Turizm şöbələrinin müdirləri, Gənclər və İdman idarələrinin rəisləri, polis şöbələri, yaxud idarələrinin rəis müavinləri və rayon (şəhər) axundları daxildir.

***– Multikulturalizm və Dini Məsələlər üzrə komissiyalara vəzifələri icra etmək üçün müvafiq iş planlarının hazırlanması tapşırılmışdı. Bu planlarda, əsasən, hansı məsələlər diqqətdə saxlanılıb?***

– Naxçıvan Muxtar Respublikasının Multikulturalizm və Dini Məsələlər üzrə Komissiyası ildə bir dəfədən az olmamaq şərtilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə hesabat verəcək. Komissiya muxtar respublikanın bölgələrində dini vəziyyətin stabilliyinin qorunmasına, "Dini etiqad azadlığı haqqında" Qanunun müddəalarına riayət olunmasına, dini mərasimlərin, o cümlədən yas mərasimlərinin dini qaydalara uyğun keçirilməsinə, eləcə də din xadimlərinin yas yerlərində radikalizm meyillərindən uzaq durmalarına nəzarət edəcək. Komissiya üzvləri şəhər və rayonlarda radikalizm meyillərinin yayılmasının qarşısının alınması, radikal dini təriqətlərin formalaşdırılmasına imkan verilməməsi sahəsində birgə fəaliyyət göstərəcəklər. Burada adıçəkilən hər bir qurumun üzərinə müəyyən vəzifə düşür. Məsələn, təhsil şöbələri ümumtəhsil məktəblərində gənclərin bu istiqamətdə maarifləndirilməsi sahəsində rol oynayacaq, tam orta məktəbləri bitirmiş gənclərlə bu istiqamətdə işi Gənclər və İdman idarələri təşkil edəcək.

***– Bəs Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin vəzifəsi nədən ibarətdir?***

– Bildiyiniz kimi, idarə dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirir və əsas fəaliyyət istiqamətlərindən biri də dini qurumlarla mərkəzi icra hakimiyyəti orqanları arasında qarşılıqlı əlaqəni formalaşdırmaqdan ibarətdir. Məhz bizim qeydiyyatdan keçmiş icma başçımızın da həmin komissiyanın üzvü olması əsas verir deyək ki, vəzifələrin çox hissəsinin icrası Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə İdarəsinin üzərinə düşür. Məsələn, təhsil şöbələrinin orta məktəblərdə dini maarifləndirmənin həyata keçirilməsi üçün din xadimlərinə ehtiyacı var. Bunu həyata keçirmək hansısa fənn müəlliminin vəzifəsi deyil. Dini maarifləndirmə işi məhz din xadimlərimizin vasitəsilə həyata keçiriləcək. Məsələn, hansısa bir yerdə qeyri-ənənəvi dini təriqətin üzvləri meydana çıxır. Bizim idarənin işçilərinin, o cümlədən qeydiyyatdan keçmiş din xadimlərinin üzərinə düşən vəzifə həmin əraziyə gedərək burada düzgün dini maarifləndirmə işinin aparılmasını təmin etməkdir. Ancaq burada hansısa qanunauyğunsuzluq və yaxud qanunun pozulması halları ortaya çıxarsa, "Dini etiqad azadlığı haqqında" Qanunun müddəaları pozularsa, bu zaman komissiyanın üzvlərindən biri olan müvafiq hüquq-mühafizə orqanının həmin bölgədəki idarəsi və ya şöbəsinin rəis müavini qanun çərçivəsində işə müdaxilə edəcək.

***– Ölkə səviyyəsində dini mərasimlər, xüsusən yas mərasimləri zamanı israfçılıq hallarının qarşısının alınması müzakirə mövzusuna çevrilib. Bu proseslər Naxçıvanda uzun müddətdir ki, tənzimlənib. Prosesə idarə tərəfindən davamlı nəzarət mexanizmi varmı, yoxsa bu sahəni ictimai rəyin özü tənzimləyir?***

– Bütün dinlər, o cümlədən İslam dini israfçılığa qarşıdır. Bəli, uzun müddətdir ki, muxtar respublikamızda keçirilən yas mərasimlərində israfçılıq həddinə yol verilmir. Bu sahədə hazırda hər hansısa bir dövlət orqanı tərəfindən, konkret olaraq, standartlaşdırma aparılmayıb. Biz, sadəcə, əvvəllər maarifləndirici söhbətlər aparmışıq və bunu ictimai rəyin özü tənzimləyir. Nəticədə, bu, muxtar respublikada adət-ənənə halını alıb. Ola bilsin ki, bundan 10-15 il qabaq hansısa bir nəzarət var idi. Amma bu gün tam əminliklə deyə bilərəm ki, belə bir nəzarət yoxdur. Hamı bilir ki, yas yerində çay, limon, xurma verilir və bir dəfə də ehsan süfrəsi açılır. Məscidlərdə və ayrı-ayrı yerlərdə inşa olunmuş mərasim zallarında üç gün yas mərasimi keçirilir. Ola bilsin ki, yas sahibi uzaqdan gələn qohumlarından dördüncü gün öz evində başsağlıqlarını qəbul etsin.

***– Dini mərasimlərin maarifləndirici xarakter daşıması üçün dini icmalar və dindarlar hansı işləri görürlər?***

– Əvvəlcə onu qeyd edim ki, qeydiyyatdan keçən icma sədrləri ilə hər ayın əvvəli Naxçıvan şəhərində Naxçıvan Muxtar Respublikasının qazisi ilə birgə idarə tərəfindən iclas keçirilir. Toplantılar zamanı muxtar respublikada dini vəziyyət müzakirə edilir. Bununla yanaşı, il ərzində şəhər və rayonlarda, ən azı, 3-4 dəfə iclaslar keçirilir. Bu iclasların məqsədi sırf dini maarifləndirmədir. Əsas hədəflərimiz din-dövlət münasibətlərinin tənzimlənməsi, həmçinin radikalizm meyillərinin, qeyri-ənənəvi təriqətlərin qarşısının alınmasıdır. Məlumdur ki, Naxçıvan Muxtar Respublikası strateji bölgədə yerləşir. Muxtar respublikaya turistlər, qonaqlar gəlir, muxtar respublika sakinləri müxtəlif ölkələrə gedirlər. Bundan əlavə, bilirsiniz ki, bu gün internetdə çoxlu dini məlumatlar yayılır və yaxud müxtəlif dini cərəyan nümayəndələrinə məxsus televiziyalarda dini verilişlər nümayiş olunur. Bu, insanlarımıza müəyyən dərəcədə təsir edir. Bu təsirlər isə heç də həmişə sağlam məqsədə xidmət etmir. İnsanlarımız bəzən fərqinə varmadan təsir altına düşürlər. İnsanlarımız qarşılarına çıxan dini məlumatların həqiqiliyinin yoxlanılmasına, öyrənilməsinə meyilli deyillər. Onlar bu məlumatları araşdırmırlar və eşitdiklərini tətbiq etməyə başlayırlar. Nəinki tətbiq etməyə, hətta ətrafındakılara təlqin belə edirlər.

Bu gün muxtar respublikada dini stabilliyin qorunması üçün mütəmadi olaraq dini maarifləndirmə işləri aparılır. Din xadimlərimiz müxtəlif dini mərasimlərdə bu işi mütəmadi olaraq həyata keçirirlər. Elə rayonlarımız var ki, oradakı bəzi kəndlərdə cəfəri məzhəbinə aid olan insanlarla yanaşı, hənəfi məzhəbinə aid olan insanlar da yaşayırlar. Bu gün qürur hissi ilə deyirəm ki, Naxçıvanda cəfəri və hənəfi məzhəbinə aid olan insanlar eyni məsciddə bir pişnamaz (imam) arxasında dayanıb qardaşlıq, birlik və bərabərlik şəraitində ibadət edirlər. Bu, tolerantlığın bariz və dünya üçün nadir nümunələrindən biridir. Bu şəraitin formalaşması isə muxtar respublikada müvafiq sahədə aparılan məqsədyönlü siyasətin uğurudur.

***– Son açıqlanan statistikaya görə, hazırda muxtar respublikada 209 məscid fəaliyyət göstərir ki, bunun 72-si 1995-ci ildən sonra tikilib, 95 məscid və 23 pir isə yenidən qurulub və ya bərpa olunub. Din xadimlərinin qeydiyyatının həyata keçirilməsi, məscidlərdə təhsilli din xadimlərinin müxtəlif ayin və mərasimləri yerinə yetirmələri sahəsində vəziyyət necədir?***

– Müstəqillik əldə etdikdən sonra Azərbaycanda, o cümlədən onun ayrılmaz tərkib hissəsi Naxçıvanda da milli və mənəvi dəyərlərə qayıdış sürətləndi. Burda da, təbii ki, din xadimlərinin rolu danılmazdır. Lakin təhsilli din xadimləri, bildiyiniz kimi, müstəqilliyin ilk illərində çox az idi. Bu gün Bakıda İslam Universiteti fəaliyyət göstərir, ölkənin müxtəlif regionlarında bu universitetin filialları var, mədrəsələr fəaliyyət göstərir, Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsi var. Təhsilli din xadimlərinin sayı kifayət qədər artıb və bu, muxtar respublikamız üçün də səciyyəvidir. Hal-hazırda muxtar respublikamızda 680 nəfər din xadimi fəaliyyət göstərir ki, bunların 200-ə yaxını İslam Universitetində ali dini təhsil alıb. Fərdi şəkildə dini təhsil alanlar, dini müstəqil şəkildə öyrənənlər də var. Din xadimlərinin qeydiyyatdan keçirilməsi attestasiya yolu ilə aparılır. Hər hansı bir vətəndaş din xadimi vəsiqəsinin verilməsi üçün müəyyən prosedurlar mövcuddur. O proseduru keçdikdən sonra həmin şəxslərə dini mərasimlərin idarə olunması üçün xüsusi bir sertifikat – vəsiqə verilir və ondan sonra onlar dini mərasimləri idarə edirlər. Bununla yanaşı, Naxçıvan şəhərindəki Heydər məscidində din xadimlərinin təkmilləşdirilməsi kursları da artıq fəaliyyətə başlamışdır. Biz din xadimlərimizin qarşısında təkcə dini dəyərlərin təbliği vəzifəsini yox, həm də milli-mənəvi dəyərlərimizin təbliğini mənəvi bir vəzifə kimi qoyuruq.

***– Bununla siz nəyə çalışırsınız?***

– Biz çalışırıq ki, insanlarımız məscidlərə təkcə dini məbədgah kimi deyil, həm də mədəniyyət ocağı, təhsil müəssisələri, tərbiyə ocağı kimi baxsınlar. Bu gün məscidlərimizin əksəriyyətində ali dini təhsil almış şəxslər tərəfindən "Qurani-Kərim" kursları təşkil olunur. Burada təhsil alan gənclərimiz var, yaşlı adamlar var, xanımlar var. Onlar burada dərsləri maraqla dinləyirlər, nələrisə öyrənirlər. Biz marağı olanları attestasiyadan keçiririk. Elə insanlar var ki, din xadimi olmaq üçün gəlmirlər, sadəcə, öyrənmək, məlumatlanmaq üçün gəlirlər. Lakin elə insanlar da olur ki, onlar sonrakı dövrdə fəaliyyətlərini müvəffəqiyyətlə din xadimi kimi davam etdirirlər.

***– Dini mərasimləri idarə edənlərin xüsusi geyim forması ilə təminatı, eləcə də mərasimlərdə geyim formasına əməl olunması istiqamətində hansı işlər görülüb?***

– Bildiyiniz kimi, muxtar respublikada müxtəlif istiqamətlərdə çalışan insanlar üçün müəyyən edilmiş uniformalar – geyimlər mövcuddur. Məsələn, bir sıra Avropa ölkələrində olduğu kimi, bizdə də taksi xidməti göstərən şəxslərin belə, özünəməxsus geyimləri vardır. O cümlədən muxtar respublikamızda da qeydiyyatdan keçən bütün din xadimləri vahid geyim forması ilə təmin olunublar. Bu geyimlər dövlət tərəfindən onlara ödənişsiz olaraq verilib. Hər bir din xadimi iki dəst geyim forması və ayaqqabı ilə artıq təmin edilib. Qarşıdan qış mövsümü gəlir. Bununla əlaqədar din xadimlərinin hər birinə uyğun müvafiq geyim dəstləri hazırlanıb. Yas yerlərində din xadimlərinin bu geyimləri geyinmələri məcburi xarakter daşıyır. Bu ilin avqust ayında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayevin muxtar respublikada din xadimləri ilə görüşü oldu. Görüşə 150 din xadimi gəlmişdi. Görüş zamanı artıq uzun zamandan bəri vahid geyim formasının tətbiq olunması təqdirəlayiq hal kimi xüsusi vurğulandı.

***– Dini təyinatlı ədəbiyyatların muxtar respublikaya gətirilməsi, onların ekspertizası necə həyata keçirilir?***

– Dini təyinatlı ədəbiyyatların ixtisaslaşdırılmış satışı məntəqələrinin yaradılması istiqamətində də işlər aparılıb. Bu fəaliyyətlə məşğul olan şəxslərlə görüşlər keçirilib. Bu fəaliyyət üçün də müvafiq razılıq verilir. Əgər fərdi olaraq istifadə məqsədilə muxtar respublikaya hər hansı xarici ölkədən dini ədəbiyyatlar və ya digər məlumat daşıyıcıları gətirilirsə, bu materiallar Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən saxlanılır və müvafiq olaraq sənədləşdirilərək Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinə göndərilir. Bu barədə vətəndaşa müvafiq qəbz verilir və idarəyə müraciət edilərək kitabların buradan alınması xahiş olunur. Bu ədəbiyyatlar bizdə xüsusi ekspertizadan keçib rəy aldıqdan sonra vətəndaşa təqdim edilir. Əgər gətirilən kitab ölkədə yayılması və nəşri qadağan olunan kitabların siyahısına daxildirsə, müvafiq qaydada müsadirə edilir və səbəbləri vətəndaşa izah olunur.

***– Son olaraq soruşmaq istəyirəm, muxtar respublikada dini durum necədir?***

– Naxçıvanda dini durum stabildir. Burada dini dəyərlərimizə və din xadimlərinə böyük hörmət və ehtiram var. Ən böyük hədəfimiz Naxçıvanda İslami dəyərləri olduğu kimi qoruyub saxlamaq, onlardan hansısa siyasi məqsədlər üçün istifadə etməyə cəhd edənlərin qarşısını almaqdır. Bu gün milli-mənəvi dəyərlərin qorunması, onlardan irəli gələn ənənələrin yaşadılması olduqca vacibdir. Muxtar respublikada dini fəaliyyət mövcud qanunvericiliyə və İslam dininin qaydaqanunlarına uyğun tənzimlənir. Əgər qanunvericiliyimizə və İslami qaydalara zidd fəaliyyət olarsa, onun qarşısı qətiyyətlə alınacaqdır. Bir daha xüsusi vurğulamaq istəyirəm ki, Naxçıvanda heç vaxt dini zəmində qarşıdurma olmayıb və bundan sonra da olmayacaq.

***– Müsahibə üçün sağ olun.***

✍ **Tural SƏFƏROV**

---

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi

## Sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi diqqət mərkəzindədir

üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı cari ilin ötən on ayı ərzində muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlbi, habelə onların cəmiyyətə inteqrasiyası istiqamətində bir sıra işlər görülüb. Ötən dövr ərzində məktəbəqədəryaşlı və məktəb yaşına çatmış sağlamlıq imkanları məhdud uşaqlar haqqında məlumat bazası yaradılıb, həmçinin hərəkət qabiliyyətinin məhdudluğu səbəbindən ümumtəhsil müəssisələrinə gedə bilməyən uşaqlar üçün Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Distant Tədris Mərkəzi istifadəyə verilib.

Proqrama əsasən, məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrə cəlb olunmuş sağlamlıq imkanları məhdud uşaqlarla bağlı yaranan çətinliklərin aradan qaldırılması və bu sahədə görülən işlərə nəzarət etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaradılan Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələrindən ibarət komissiya fəaliyyətini davam etdirir.

Komissiya üzvləri ötən tədris ilində sağlamlıq imkanları məhdud uşaqların cəlb olunduğu məktəbəqədər, ümumtəhsil və məktəbdənkənar müəssisələrdə olmuş, uşaqların tədrisdə iştirakına, peşə maraqlarının aşkar edilməsinə, ümumtəhsil müəssisələrində psixoloqlar tərəfindən sağlamlıq imkanları məhdud uşaqlarla fərdi proqram əsasında həyata keçirilən tədbirlərin nəticələrinə dair monitorinqlər, həmçinin sağlamlıq imkanları məhdud uşaqların valideynləri, müəllimləri ilə maarifləndirici görüşlər keçiriblər.

Dövlət proqramının həyata keçirilməsi üzrə tədbirlər planında nəzərdə tutulan müvafiq tapşırıqların icrasına uyğun olaraq, noyabrın 28-də Şərur şəhər 2 nömrəli tam orta məktəbdə yeni tədris ilində tədrisə cəlb edilmiş sağlamlıq imkanları məhdud uşaqlar üçün tolerant mühitin yaradılması məqsədilə növbəti maarifləndirici tədbir keçirilib. Komissiya üzvlərinin, Şərur şəhər 1 və 2 nömrəli, həmçinin Zeyvə, Düdəngə və Cəlilkənd tam orta məktəblərində dərslərə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların valideynlərinin, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlərin və məktəb psixoloqlarının iştirak etdiyi tədbirdə təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud uşaqların tədrisə davamiyyəti, məktəb psixoloqu tərəfindən hazırlanmış fərdi proqram əsasında həyata keçirilən tədbirlər və qarşıda duran vəzifələr haqqında maarifləndirici söhbətlər aparılıb, iştirakçıların sualları cavablandırılıb.

Maarifləndirici tədbirlər davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Hər il dekabr ayının 1-i "Ümumdünya QİÇS-lə Mübarizə Günü" kimi qeyd edilir. 1988-ci ildə təsis olunan QİÇS-lə Mübarizə Gününün məqsədi dünya ictimaiyyətinin diqqətini bu problemin həllinə cəlb etməkdir.*

*1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günüdür*

## Muxtar respublikamızda bu virusa qarşı mübarizə tədbirləri gücləndirilir

Qazanılmış İmmun Çatışmazlığı Sindromu dünya səhiyyəsinin ciddi mübarizə apardığı infeksion xəstəliklər sırasındadır. Bu virus insanların məhvinə səbəb olan ən təhlükəli qlobal problemlərdəndir. Epidemiya kimi ilk dəfə harada aşkarlanması məlum olmayan QİÇS heç bir sərhəd tanımadan Yer üzündə tüğyan etməkdədir. Bəlkə, elə bu xüsusiyyətinə görə o, əsrin bəlalarından biri hesab olunur. Qloballaşan dünyada getdikcə güclənən miqrasiya prosesləri də epidemiyanın sürətlə yayılmasına rəvac verir. Hazırda dünyada milyonlarla insan bu virusun daşıyıcısıdır. Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada hər gün 6800-dən artıq insan immun çatışmazlığı virusuna (İİV) yoluxur, 5700-dən artıq insan isə QİÇS səbəbindən vəfat edir.

Bu infeksiyanın durmadan yayılmasına səbəb onun illərlə, demək olar ki, simptomsuz şəkildə davam edən gizli dövrə malik olmasıdır. Xəstəliyin inkubasyon dövrü aylar və ya illər çəkdiyindən bu viruslara lentiviruslar adı verilmişdir. QİÇS virusu hüceyrəyə daxil olduqdan sonra onun içərisində dağılır, hüceyrə onunla mübarizə aparmaq əvəzinə, virus hüceyrəni yeni bir tərkibdə formalaşdırır və hüceyrə mübarizə qabiliyyətini itirir. İllərlə davam edən bu proses nəticəsində ən adi infeksiya ilə mübarizə aparan 4T herperləri məhv olur və insan cüzi bir törədici qarşısında aciz qalaraq dünyasını dəyişir. Yəni hüceyrəyə daxil olmuş virus məcbur edir ki, hüceyrə virusun ayrı-ayrı detallarını sintez edərək onları birləşdirib yeni virus yaratsın. Uzun müddət davam edən qızdırma, linfa düyünlərinin şişməsi, ümumi zəiflik, çəkinin şiddətlə azalması, aylarla davam edən öskürək, qaraciyər və dalağın böyüməsi və sair bu kimi hallar isə xəstəliyin erkən göstəriciləridir.

QİÇS-in yaranması və yayılması konkret bir amillə hesablanmır. Bu xəstəliyin yaranmasına və yayılmasına daha çox narkomaniya, qeyri-sağlam həyat tərzi, antisanitariya, natəmizlik səbəb olur. Bundan başqa, yoxlanmamış donor qanın köçürülməsi zamanı birdəfəlik şprislərin təkrar istifadəsi, steril olmayan tibbi alətlər, döymə, qulaq və bədənin digər üzvlərinin deşilməsi, manikür, gigiyenik tələblərə cavab verməyən əşyalardan istifadə və başqa amillər də yoluxmaya gətirib çıxara bilər. Xəstə anadan uşaqlara keçən infeksiya da yoluxmada əsas səbəblərdən hesab olunur.

Azərbaycanda ilk dəfə insanın immun çatışmazlığı virusu 1987-ci ildə aşkarlanmışdır. Həmin dövrdən başlayaraq bu xəstəliyə qarşı mübarizə aparılır. Hazırda Azərbaycanda bu xəstəliyin yayılma faizi aşağı həddədir. Ölkəmizdə immun çatışmazlığı virusuna yoluxan insanlara profilaktika, müalicə və psixoloji dəstəyin göstərilməsinin təmin edilməsi işi QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən diqqət mərkəzində saxlanılır. Azərbaycan Respublikası QİÇS-lə Mübarizə Mərkəzində "İnsanın immun çatışmazlığı virusu infeksiyası" diaqnozu ilə dispanser qeydiyyatına götürülən və ehtiyacı olan bütün xəstələr QİÇS-lə bağlı müayinə və müalicə edilir, onlara qulluq göstərilir. Müalicə nəticəsində immun sistemi bərpa olunur, xəstələnmə və ölüm hadisələri azalır. Qeyd edək ki, 1996-cı il aprelin 16-da ölkəmizdə "İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəliyin (QİÇS) yayılmasının qarşısının alınması haqqında" Qanun qəbul olunub. 2010-cu ildə isə qanun layihəsi yenidən işlənərək "İnsan immun çatışmazlığı virusunun törətdiyi xəstəlik haqqında" Qanun qəbul edilib və bu sahədə qanunvericilik bazası daha da təkmilləşdirilib.

Naxçıvan Muxtar Respublikasında insanların QİÇS-ə yoluxma səviyyəsi aşağı həddədir. Lakin əksər ölkələrdə bu xəstəliyin sürətlə çoxalması muxtar respublikada da QİÇS-lə mübarizəni aktuallaşdırır. Buna görə də bu bəşəri problem daim nəzarətdə saxlanılır. İİV-lə yaşayan şəxslərə profilaktika, müalicə, qulluq və dəstəyin göstərilməsi işinin təmin edilməsi məqsədilə muxtar respublikada QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzi fəaliyyət göstərir. Cari ilin 10 ayı ərzində mərkəzin laboratoriyasında QİÇS infeksiyasına görə 20 min 531, hepatit B-yə görə 13 min 895, hepatit C-yə görə 13 min 744, hepatit A-ya görə isə 33 laborator müayinə aparılmışdır. Ötən dövr ərzində tibb işçilərinə və vətəndaşlara QİÇS-lə mübarizəyə aid kitabçalar paylanmış, aşkar olunmuş QİÇS-li xəstələr dispanser nəzarətinə götürülmüşdür. Onların dərman preparatları ilə təchizatı vaxtlı-vaxtında aparılır. Bundan başqa, xəstələrin ailə üzvləri mütəmadi olaraq müayinəyə cəlb edilərək xəstəlikdən qorunma yolları izah olunur.

Maarifləndirici tədbirlərin həyata keçirilməsi xəstəliyin yayılmasının və qarşısının alınmasında mühüm əhəmiyyətə malikdir. Buna görə də muxtar respublikada profilaktik tədbirlərə yanaşı, səhiyyə maarifi də diqqət mərkəzində saxlanılır. Bu məqsədlə mərkəzin işçiləri tez-tez muxtar respublikamızda fəaliyyət göstərən ali, orta ixtisas və orta təhsil müəssisələrində olur, yeniyetmə və gənclər arasında söhbətlər aparır, müxtəlif seminarlar keçirirlər. Həyata keçirilən profilaktik tədbirlər zamanı xəstəliyin yayılma yolları, diaqnostikası, müalicəsi, qorunma tədbirləri haqqında vətəndaşlara ətraflı məlumat verilir.

Unutmayaq ki, hər bir insanın sağlamlığı, ilk növbədə, onun özündən asılıdır. Normal həyat tərzi sürmək üçün hər kəs daim öz sağlamlığının qayğısına qalmalı, zərərli vərdişlərdən uzaq olmalı, gigiyena və sanitariya qaydalarına əməl etməlidir. Xüsusilə də bu cür infeksion xəstəliklərə qarşı mübarizədə aktivlik göstərilməlidir. Qeyd edək ki, Naxçıvan Muxtar Respublikası QİÇS-lə Mübarizə və Profilaktika Mərkəzində 1 dekabr – Ümumdünya QİÇS-lə Mübarizə Günü münasibətilə mübarizə aylığı keçirilir. Mərkəz hamını bu aylıqda fəal iştirak etməyə çağırır.

## Ümumtəhsil məktəblərində flüoroqrafik müayinələr aparılır

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, bu il noyabrın 3-dən 5-11-ci siniflərdə təhsil alan məktəblilər arasında ağciyər vərəminin profilaktikası və ilkin vərəmin vaxtında aşkar edilməsi məqsədilə kütləvi tuberkulin diaqnostikası – mantu sınaqlarının aparılmasına başlanılıb. Bu xəstəliyin ayrıca klinik forması olan ilkin vərəm intoksiyası naməlum lokalizasiyalı vərəm infeksiyası ilə xarakterizə edilir. İlkin vərəm intoksiyasının rentgenoloji və instrumental müayinələrlə üzə çıxarılması mümkün olmadığından uşaq və yeniyetmələrdə ilkin vərəm intoksiyasının diaqnozu kütləvi şəkildə aparılan mantu sınağının nəticəsinə və ondan sonrakı şikayətlərin müqayisəli öyrənilməsinə əsaslanır. Payız mövsümünün sınaqları iki mərhələdə həyata keçirilib. Birinci mərhələdə sınaq inyeksiya şəklində qolun said hissəsində dəri içinə yeridilib. İkinci mərhələdə isə 72 saatdan sonra həmin inyeksiya yerində reaksiyanın nəticələri qiymətləndirilib. Aksiyanın sonunda müsbət və hiperergik reaksiyalı uşaqlar Ağciyər Xəstəlikləri Dispanseri tərəfindən dərin ftiziatr müayinəsinə cəlb olunublar. Şərur Rayon Mərkəzi Xəstəxanasında, Culfa rayonunun Əbrəqunus, Kəngərli rayonunun Qıvraq qəsəbə tam orta məktəblərində müsbət, şübhəli və hiperergik reaksiyalı şagirdlər rentgen-flüoroqrafik müayinədən keçirilib və vərəməyoluxma halları aşkar edilməyib. İlk dəfə vərəm mikrobakteriyaları ilə yoluxmuş uşaqlar isə profilaktik məqsədlə bir neçə ay pulsuz dərman preparatları ilə təmin olunacaqlar. Müayinəyə gələnlərlə "Uşaqlarda vərəm intoksiyası" mövzusunda səhiyyə maarifi işi aparılıb, müayinə olunanlara vərəm haqqında buklet və kitabçalar paylanıb. Nəticələrə görə, bu məktəblərdə epidemioloji əmin-amanlıq mövcuddur.

Mantu sınağına müsbət və hiperergik reaksiyalı uşaqların dərin ftiziatr müayinəsi ilin sonunadək davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Sədərək Rayon Mərkəzi Xəstəxanası insanların ümid yerinə çevrilib

***Səhiyyənin inkişafı ilə bağlı muxtar respublikamızda həyata keçirilən islahatlar öz bəhrəsini verməkdədir. Bacarıqlı, yüksəkixtisaslı tibbi kadrların hazırlanmasından tutmuş səhiyyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsinə, yeni sağlamlıq ocaqlarının yaradılmasına, ən müasir tibbi avadanlıqların diyarımıza gətirilməsinə qədər görülən işlər inkişafın əsas göstəriciləridir.***



Düşmənlə təmas xəttinin beş addımlığında yaşayan Sədərək rayonunun əhalisinə nümunəvi səhiyyə xidməti göstərilməsinin təmin olunması da sərhəd bölgəsinə dövlət qayğısının əyani ifadəsidir. Bu davamlı qayğı rayon səhiyyəsinin maddi-texniki bazasının möhkəmləndirilməsində mühüm şərtdir. 2010-cu il oktyabrın 5-də zirzəmi ilə birlikdə üçmərtəbəli xəstəxana binası istifadəyə verilib, lazımi avadanlıqlarla təchiz edilib. Xəstəxananın açılış mərasimində iştirak edən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev rayon sakinlərini təbrik edərək sərhəd bölgəsində müasir səhiyyə ocağının yaradılmasını yüksək qiymətləndirib: ***"Bu xəstəxananın açılışı gözəl və əlamətdar hadisədir. Mən xəstəxana ilə tanış oldum, gördüm ki, burada müasir avadanlıq quraşdırılıbdır, yüksək səviyyədə tikinti işləri aparılıbdır, gözəl layihədir. Həm müalicə olmaq, həm də müayinədən, diaqnostik prosedurlardan keçmək üçün bütün şərait, imkan vardır. Bu xəstəxana rayon sakinləri üçün gözəl bir hədiyyədir. Mən çalışıram və istəyirəm ki, Azərbaycanın hər bir yerində yüksəksəviyyəli tibbi xidmət göstərilsin. Çox şadam ki, Naxçıvanda bu sahədə böyük işlər görülür, böyük uğurlar əldə edilir..."***

... Budur, Sədərək Rayon Mərkəzi Xəstəxanasındayam. Hara baxırsan, təmizlik, gül-çiçək, yaşıllıq görürsən. Həkimlərin ixtiyarında tibbin son nailiyyətləri hesab olunan müasir avadanlıqlar var.

Xəstəxananın baş həkimi Nəriman Seyidovla birlikdə səhiyyə ocağını gəzərkən qeyd etdiyim cəhətlər açıq-aşkar hiss olunurdu. Əlbəttə, olduqca sevindirici bir haldır.

Səhiyyə ocağında 61 nəfər tibbi personal çalışır. Burada 3 şöbə – Stasionar, Poliklinika və Təcili yardım şöbələri fəaliyyət göstərir. Həmçinin yoluxucu xəstəliklər, pediatriya, doğuş və ginekologiya, cərrahiyyə, terapiya bölmələri, laboratoriya, əczaxana, burun-boğaz-qulaq kabineti, fizioterapiya, manipulyasiya, elektrokardioqrafiya, stomatologiya, oftalmologiya, ultrasəs müayinə, rentgen otaqları xəstələrin xidmətindədir.

Xəstəxananın Təcili yardım şöbəsi müasir avadanlıqları olan üç maşınla təmin olunub. Cari ilin 10 ayı ərzində şöbə tərəfindən çağırışla bağlı 3555 gediş edilib.

Sədərəkdə imtiyazlı xəstələrə xüsusi qayğı ilə yanaşılır. Təkcə bu ilin 10 ayında bu məqsədlə 21 min 240 manat vəsait xərclənib. Bu vəsaitin 15 min 670 manatı şəkərli diabet xəstələrinin payına düşüb. Ümumiyyətlə, rayonda şəkərli diabetlə mübarizə işinə xüsusi diqqət yetirilir. Hazırda 226 belə xəstə qeydiyyatdadır.

Xəstəxanada olarkən 90 yaşlı Həsən Əliyev bizimlə söhbətində bildirdi ki, yeni xəstəxana istifadəyə veriləndən tez-tez bura gəlir: "Biz qocalara qayğı gərəkdir, səhhətimizi yoxlatmaq vacibdir. On gündən bir bura gəlib yoxlamadan keçirəm. Həkim və tibb işçilərindən razıyam".

Xəstələrdən Samilə İsmayılova, Yolçu Abbasov, Sara Rəhimova və digərləri də onlar üçün yaradılan şəraitə görə minnətdarlıqlarını bildirdilər.

Ana və uşaqlara göstərilən tibbi xidmətin keyfiyyətinin yaxşılaşdırılması da dövlətin sosialyönümlü siyasətinin prioritet istiqamətlərindən biridir və son illərdə bu sahədə də mühüm tədbirlər həyata keçirilir. Təqvim əsasında 11 xəstəliyə qarşı peyvəndləmə işi aparılır. On ay ərzində rayonda 40 uşaq doğulub. Epidemioloji sabitlik qorunur; bunun nəticəsidir ki, körpələr arasında yoluxucu xəstəliklər qeydə alınmayıb.

Uşaq və yeniyetmələrin sağlamlığı barədə məlumatların vətəndaşların elektron sağlamlıq kartı sisteminə daxil edilməsi istiqamətində lazımi işlər görülür. Belə ki, rayonda yeni doğulmuş uşaqlar haqqında müvafiq məlumatlar internet vasitəsilə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinə ötürülür və elektron sağlamlıq kartlarının verilməsi işi sistemli şəkildə davam etdirilir. Xəstəxananın həkimləri və orta tibb işçiləri üçün səhiyyənin aktual məsələlərinə dair müntəzəm seminarlar keçirilir.

Rayon Mərkəzi Xəstəxanası 15 min 407 nəfərə səhiyyə xidməti göstərir. Baş həkim Nəriman Seyidov əhalinin müayinəyə cəlb edilməsində maarifləndirmə işinin əhəmiyyətini xüsusi vurğuladı. Yeri gəlmişkən onu da qeyd edək ki, Prezident cənab İlham Əliyevin tapşırığına əsasən, əhalinin kütləvi müayinəyə cəlb olunması işi Sədərəkdə də uğurla yerinə yetirilib. 2014-cü il fevralın 17-dən mayın 1-dək 12 min 740 nəfər tibbi müayinədən keçirilib.

N.Seyidov qeyd etdi ki, 20 yaşlı gənclərin dispanserizasiyası məqsədilə 150 nəfər, 0-17 yaşlı uşaqların dispanserizasiyası məqsədilə 3860 nəfər, ahıl vətəndaşların dispanserizasiyası zamanı 153 nəfər tibbi müayinəyə cəlb olunub. Nəticədə, xəstəlik aşkar edilmiş vətəndaşlara müalicə kursu təyin edilib.

Fəsil dəyişkənliyi ilə əlaqədar payız mövsümündə məktəblərdə şagirdlər arasında müayinə işi aparılıb, xəstəlik müşahidə edilən uşaqlar müvafiq müalicə müəssisələrinə cəlb olunublar.

Baş həkim xüsusi vurğuladı ki, insanların vaxtında həkimə müraciət etmələri və ya vaxtaşırı tibbi müayinədən keçmələri bir çox xəstəliyin qarşısının alınmasında mühüm rol oynaya bilər. O həmçinin maraqlı bir məqama da toxunaraq bildirdi ki, elmi-texniki tərəqqinin insan həyatına daha çox müdaxilə etdiyi bir dövrdə hərəkətsizlik – adinamiya sindromu yaranır. Bu isə insanın fiziki passivliyinə səbəb olmaqla sağlamlığına mənfi təsir göstərir. İnsan düzgün qidalansa, özü üçün aktiv həyat tərzi formalaşdırsa, bir çox xəstəliklərin təkanvericisi olan stresdən də uzaq ola bilər.

Xəstəxananın müasir tələblərə cavab verən laboratoriyasında biokimyəvi və yoluxucu xəstəliklərin müayinəsini aparmaq üçün tibbi avadanlıq var. Həmçinin stomatoloji qurğu, rentgen, fizioterapiya avadanlıqları və sair xəstələrin xidmətindədir. Əgər əvvəllər rayon əhalisi belə müayinələr üçün Şərur və ya Naxçıvan şəhərlərinə yollanırdısa, artıq buna ehtiyac yoxdur.

Xəstəxanada yaradılmış iki səyyar həkim briqadası tez-tez rayonun müxtəlif ərazilərində olur, xəstələri yerindəcə müayinədən keçirir.

Bütün bunların nəticəsidir ki, Sədərəkdə hamı səhiyyə işçilərinə inanır və öz sağlamlığını onlara etibar edir. Ən müasir tibb avadanlıqları ilə təchiz olunmuş səhiyyə müəssisəsində işləmək tibb işçilərini peşələrinə daha çox bağlayır.

*Təbii ki, insan sağlamlığının təminatlarından biri də yaşayış səviyyəsinin yüksək olmasıdır. Bu gün ölkəmizdə, eləcə də muxtar respublikamızda həyata keçirilən dövlət proqramları məhz buna yönəlib. Sərhəd bölgəsində yaşayan sədərəklilər də dövlət qayğısı ilə əhatə olunublar. Hər bir Sədərək sakini bu diqqət və qayğıdan razıdır. Bir dahinin dediyi söz, məncə, bu məqamda yerinə düşər: "Sağlam insanları olan cəmiyyətdə yaşamaq necə də asandır", lap Sədərəkdə olduğu kimi.*

**Cəfər ƏLİYEV**

Naxçıvan Muxtar Respublikası – 90

# Naxçıvan şəhəri

Əртoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi

## dünən



## bu gün



***Çoxlarımıza məlum olduğu kimi, kəlağayı ipək sapdan toxunmuş dördkünc formalı qadın baş örtüyüdür. Bəzi regionlarımızda buna "çarqat" da deyirlər. Hələ qədimlərdən təmizliyin, halallığın və saflığın təcəssümü olan kəlağayı insanlar üçün hər zaman müqəddəs sayılmışdır. Kəlağayı onu örtənin başından üstdə dayanan, ağıldan, kamaldan, təsəvvürdən yuxarıda qərar tutan geyim kimi də müqəddəs hesab edilmişdir. Onu həmişə təmiz, səliqəli, toz qonmayan yerlərdə, boğçada, sandıqda saxlamışlar. Eyni zamanda bu qədim baş örtüyü qadının şərəf, namus, ismət rəmzi hesab olunmuşdur. Qadının başındakı kəlağayını çəkib almaq, tapdalamaq və ya oğurlamaq o ailənin namus-qeyrətinə toxunmağa bərabər sayılmışdır. Əgər qadın bir-biri ilə döyüşən kişilərin qarşısına baş örpəyini açıb atardısa, vuruşanlar o saat əl saxlar, döyüşü dayandırardılar. Kəlağayı qədim adətlərimizin də ayrılmaz tərkib hissəsi olmuş, öz rəngləri ilə xeyir, şər, səadət və bədbəxtlik barədə xəbərdaredici rol oynamışdır. Gəlin gətirilərkən başına ağ kəlağayı örtmək, gəlin arabasının qabağına ağ, soğanı, narıncı, zoğalı kəlağayılar bağlamaq, hüzn, matəm günləri evlərin qarşısından qara kəlağayılar asmaq, niyyət baş tutduqda məscidlərə, ziyarətgahlara kəlağayı aparmaq, kasıblara, şikəstlərə kəlağayı pay vermək kimi adətlərimiz buna nümunədir.***

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Kəlağayı tariximiz, mədəniyyətimiz, yaraşığımızdır



Kəlağayı örtmə ilə əlaqədar da xalqımızın öz qayda-qanunları olmuşdur. Belə ki, gəlinlər ağ, gənc qızlar soğanı, ortayaşlı qadınlar zoğalı və innabı, ahıl və ağbirçəklər üçün isə tündrəngli kəlağayılar münasib sayılmışdır. Yas mərasimlərində isə yaşından asılı olmayaraq, bütün qadınlar qara kəlağayı örtmüşlər. Kəlağayı örtmək səhiyyə-sağlamlıq baxımından da xeyirlidir. Dumana, tüstüyə, toza və ya pis qoxuya rast gəldikdə qadın kəlağayısı ilə üzünü örtməklə bunların nəfəs yoluna daxil olmasının qarşısını alır.

Kəlağayıya el-oba arasında rəğbət bəslənməsinin səbəblərindən biri də onun çətin zəhmətlə hasil edilməsidir. Ata-baba ustadların dediklərinə görə, "kəlağayını ərsəyə gətirmək evə təzə gələn gəlinin nazını çəkməkdən ağırdır". Çünki kəlağayının hazırlanması bir neçə mərhələdən keçməklə uzun zaman tələb edir. Birinci mərhələ kəlağayının sapının istehsalıdır. Kəlağayı üçün çox nazik ipək sap tələb olunur. Bir qram nazik sap 10-12 baramadan alınır. Əvvəlcə kəlağayılıq məhsul dəzgahda toxunur, daha sonra qayçı ilə 150-160 santimetr ölçüdə doğranır. Sonra onu soda qatılmış suda 20-30 dəqiqə qaynadırlar. Kəlağayını 2-3 dəfə soyuq suda yaxalayır, yüngülcə sıxır, asaraq qurudurlar. Qurutduqdan sonra naxışlama işi başlanır.

Kəlağayını armud, qoz, cır alma ağacından hazırlanmış, üzəri böyük ustalıqla oyulmuş nəbati, həndəsi və kosmoqonik təsvirlərdən ibarət qəliblərlə naxışlayırlar. Burada, əsasən, basma naxış üsulundan istifadə olunur. Qəliblər naxışlarına görə müxtəlif adlarla adlandırılır. Bu naxışların içərisində "Günəş", "simayi-şəms", "haşiyə", "şax", "buta", "mədahil", "xarı bülbül", "heyratı", "xətayi", "kəpənək", "çobanyastığı", "çiyələk" və "aypara" daha məşhurdur.

Kəlağayı naxışlandıqdan sonra onun boyanması işinə başlanılır. Bu iş "Küp damı" adlanan boyaqçılıq emalatxanasında görülür. Bu baş örtüyünün hazırlanmasında ən maraqlı faktlardan biri də istifadə olunan ipəkdən tutmuş boyağa qədər hər bir materialın təbii olmasıdır. Kəlağayıda istifadə olunan boyağı cır alma ağacının qabığından, sumaq, zirinc, zəfəran, qarağat, vələs, sarağan, narınc kimi bitkilərdən əldə edirlər. Sevindirici haldır ki, bu gün bəzi ucqar dağ kəndlərimizdə ata-baba üsulu ilə kəlağayı hazırlama hələ də unudulmayıb. Kəlağayı toxunan avtomat dəzgahlı sexlərdən fərqli olaraq, bu qədim üsulla hazırlanan kəlağayılar gec hasil olsa da, keyfiyyəti və gözəlliyi ilə digərlərindən müqayisəedilməz dərəcədə fərqlənir. Bir sözlə, əl əməyi ilə çalışan ustalar xüsusi emalatxanalarda çox bəsit alətlərdən istifadə etməklə keyfiyyətli və gözəl kəlağayılar hazırlayırlar.

Haqqında bəhs etdiyimiz bu zərif, incə görünüşlü kəlağayılar təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da məşhurlaşmış, xaricdən gələn turistlər tərəfindən rəğbətlə qarşılanmışdır. "Heyratı", "Soğanı", "İstiotu", "Albuxarı", "Abi", "Yeləni" adlı əlvan kəlağayılar uzun zaman sərgilərdə, yarmarkalarda nümayiş etdirilmiş, insanların zövqünü oxşamışdır. Bu kəlağayılar sırasında basma naxışlı "Yeləni" və "Heyratı" kəlağayıları daha məşhurdur.

Qeyd edək ki, neçə-neçə xalq sənətinin təşəkkül tapdığı, formalaşdığı Naxçıvan torpağında da kəlağayılara xüsusi hörmət, ehtiram bəslənmişdir. Nənə və babalarımızın söylədiklərinə görə, bir zamanlar burada kəlağayıtoxuma mövcud olsa da, sonralar bu sənət sıradan çıxmış, unudulmuşdur. Lakin misilsiz Ordubad ipəyindən hazırlanan bu milli baş geyimimiz yaddaşlarda özünə əbədi bir yer qazanmışdır.

Kəlağayılarımız hər zaman naz-qəmzəli, şux yerişli Azərbaycan qadınlarının bənzərsiz gözəlliyinə xüsusi bir sirr, müəmma qatmışdır. Bu kəlağayılarda şairlərin, aşıqların fəxrlə tərənnüm etdikləri utancaq və ürkək baxışlar, işvəkar təbəssümlər, qadın simasının gözəllik cizgiləri gizlənmişdir. Ancaq təəssüf hissi ilə bildirməliyik ki, kəlağayı bağlamaq adəti illər ötdükcə unudulmuş, müxtəlif ölkələrdən gətirilən növbənöv qadın baş geyimləri kəlağayılarımızı "əvəzləmişdir". Bir zamanlar addımbaşı kəlağayılı qadınlara rast gəlinirdisə, bu gün artıq bu milli baş örtüyünə, demək olar ki, ancaq yaşlı qadınlarda və ya ucqar dağ kəndlərinin əhalisi arasında rast gəlmək olur.

Unutmayaq ki, milli xüsusiyyətlərimizin əsas daşıyıcılarından biri olan kəlağayımızdan uzaqlaşmağa, ona biganə yanaşmağa haqqımız yoxdur. Çünki onda nənələrimizin nəfəsi, doğmalıq hərarəti var. Məhz buna görə də kəlağayımız var olduqca bu nəfəs də duyulacaq, ruhumuz doğma hərarətdən qidalanacaqdır...

Milli dəyərlərimizin qorunmasına yüksək diqqət və qayğı göstərilən ölkəmizdə kəlağayı sənətinin inkişafı da diqqət mərkəzindədir. Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti nəticəsində kəlağayı sənətinin Azərbaycan xalqının milli-mənəvi dəyərlər sistemində və adət-ənənələrimizdə ən mühüm mədəniyyət nümunəsi olduğu beynəlxalq səviyyədə öz təsdiqini tapmışdır. Belə ki, UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Hökumətlərarası Komitəsinin noyabrın 26-da keçirilən iclasında Azərbaycan kəlağayı sənəti "Kəlağayı simvolizmi və ənənəvi sənəti" adı ilə UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilmişdir.

*Xatırladaq ki, kəlağayıdan başqa, Azərbaycanın muğam ifaçılıq sənəti, aşıq sənəti, Novruz bayramı, Azərbaycan xalçası, tar ifaçılıq sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ atüstü oyun ənənəsi isə qurumun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilmişdir.*

✍ **Sara ƏZİMOVA**

## Basketbol birinciliyinə yekun vurulub

*Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr edilmiş kişilər arasında keçirilən basketbol üzrə muxtar respublika birinciliyi başa çatıb.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi birincilikdə 8 komanda – "Naxçıvan", Naxçıvan Özəl Universitetinin komandası, "Babək" və "Şərur", "Ordubad", "Culfa", "Sədərək" və "Lokomotiv" – iki yarımqrupda mübarizə aparıb. Yarışın əsasnaməsinə görə, qruplarda ilk yerləri tutan komandalar finalda, ikinci yerlərin sahibləri isə üçüncülük üzrə matçda qarşı-qarşıya gəliblər.

İlk olaraq meydana üçüncülük uğrunda "Culfa" və Naxçıvan Özəl Universitetinin komandaları çıxıb. Səbəti daha sərrast hədəf alan culfalılar bu görüşdən qalib ayrılaraq üçüncülüklə kifayətləniblər. Final görüşü isə daha gərgin və maraqlı keçib. Həlledici qarşılaşmada "Naxçıvan" və "Ordubad" komandaları üz-üzə gəliblər. Oyun boyu üstünlüyü əldən verməyən Naxçıvan şəhərinin basketbolçuları meydanı qalib kimi tərk ediblər – 87:44.

Bununla, Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr edilmiş kişilər arasında basketbol üzrə muxtar respublika birinciliyinə yekun vurulub. Sonda qaliblərə diplom, fəxri fərman və hədiyyələr təqdim olunub. Qalib adını qazanan "Naxçıvan" komandası isə kubokla mükafatlandırılıb. Mükafatları Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov və Basketbol Federasiyasının sədri Mahir Əliyev təqdim ediblər.

## "Zirvə" komandası Azərbaycan çempionatında muxtar respublikanı təmsil edəcək

Naxçıvan şəhərindəki Gənclər Mərkəzində yeniyetmələr arasında "Nuh yurdu" intellektual oyununun Naxçıvan Muxtar Respublika zona birinciliyi keçirilib. Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi və "Gənclərin İntellektual İnkişaf Mərkəzi" İctimai Birliyinin birgə təşkilatçılığı ilə keçirilən intellektual oyunda 8 komanda iştirak edib. Finala vəsiqə uğrunda gərgin mübarizədən sonra "Zirvə", "Odlar yurdu", "Nuh yurdu" və "Şahin" komandaları ikinci mərhələyə yüksəliblər. Bu mərhələdə daha bacarıqlı oyun sərgiləyən "Zirvə" komandası ən yüksək xal toplayaraq birinci yerə layiq görülüb. Digər iki pillədə isə "Şahin" və "Nuh yurdu" komandaları qərarlaşıblar.

Sonda qaliblərə təşkilatçılar tərəfindən diplom və fəxri fərmanlar təqdim olunub.

Qeyd edək ki, bu mərhələnin qalibi olan "Zirvə" komandası dekabr ayında "Xəmsə" milli intellektual oyunu üzrə keçiriləcək Azərbaycan çempionatında muxtar respublikanı təmsil edəcək.

✍ **Ceyhun MƏMMƏDOV**


***İtmişdir***

Naxçıvan şəhərinin Qaraxanbəyli kəndində yaşamış Səfərova Leylan Sultan qızının adına olan JN-1251$^{A}$ inventar nömrəli, 10304005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Mehdiyev Amid Astan oğlunun adına olan SX-0157560 seriya nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.



**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səyyar Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 1001